## DÜNYA ƏDƏBİYYATINDA SATİRANIN YARANMASI VƏ İNKİŞAFI

***F.ü.f.d.Səkinə BAYRAMOVA***
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan*
*sakina.bayramova.z@gmail.com*
*https://orcid.org/0000-0003-3737-7674*

Bəzi tədqiqatçıların qədim Yunanıstanda, bəzilərinin isə qədim Roma ədəbiyyatında meydana çıxdığını göstərdikləri satiranın inkişafı Horatsi Persiusun, Lutsiliyan və Yuvenalın adı ilə bağlıdır. Satiranı ədəbi janr olaraq təqdim edən isə Romanın məşhur natiqi Kvintilian olmuşdur. İntibah dövründən üzü günümüzə satiranın rolu nəzərə çarpacaq dərəcədə artmış və ədəbiyyatda mühüm yer tutmuşdur. Məzmunca fərqli, yeni-yeni satirik əsərlərin ortaya çıxması da bu dövrlə əlaqədardır. Kilsə və kilsəyə məxsus ehkamlara, kilsə xadimlərinə və qaydalarına, həmçinin əxlaqsız keşişlərə, din xadimlərinə qarşı yazılan satirik əsərlər bu dövrdə yaranmağa başlamış, burjuaziya inkişaf etdikcə satira da təkamül yolu keçmiş, inkişaf etmişdir.
Satiraya münasibət hər zaman fərqli olmuş, çox vaxt tənqidi münasibətlə qarşılanmışdır. Hakim ideologiya ilə bağlı mövqeyinə görə alqışla qarşılanmayan satira tənqid etdiyi və gülüş hədəfinə çevrildiyi sosial zünmərələr və şəxslər tərəfindən mənfi emosiyaların daşıyıcısı kimi dəyərləndirilmişdir. Əslində isə satira cəmiyyətin və şəxslərin konkret, fərdi qüsurlarını əks etdirən kiçik həcmli sənət növüdür. Satira nadanlıq və cahilliyi aradan qaldırmağa, naqislik, ədalətsizlik və haqsızlığa qarşı təsirli bir silahdır. Bu baxımdan satira ədəbiyyatdakı digər ədəbi növ və janrlardan daha irəlidədir. XIX əsrin axırı - XX əsrin əvvələrində Bernard Şounun yaradıcılığı ilə satira daha da inkişaf etmişdir. M.B.Pокотılonun sözləri ilə desək, “Satira tədricən onu xarakterizə edən güclü ifşa və inkar pafosunun təsirindən çıxaraq virtouz hazırcavablığın, ağlın ifadəçisinə çevrilmişdir.”
Satiranın yaranması və inkişafı ədəbi proseslərin inkişafı, baş verən forma və məzmun dəyişkənliyi ilə bağlı olmuş, komiklik, yumoristliklik ya ironiyalılıq satiranın ictimai-sosial vəzifəsini müəyyənləşdirir. Satiranın sosial funksiyasını dəyərləndirən Bualoya görə, satira janrı cəmiyyət üçün qəsidədən daha çox lazımdır. Bu baxımdan şifahi xalq ədəbiyyatında yaranan satirik əsərləri xüsusi qeyd etmək yerinə düşər. Tədqiqatçılar İtalyan xalq ədəbiyyatına məxsus “Maskaların komediyası”nın əhəmiyyətini ayrıca vurğulayırlar. İntibah dövrü ideologiyasını tənqid edən, ona təsir göstərən müəlliflərin əsərlərinin hələ də öz dəyərini itirməməsi də satiranın rolunu bir daha sübut edir.

**Açar sözlər:** satira, proses, yumor, ictimai məzmun,vəzifə

## THE EMERGENCY AND DEVELOPMENT OF SATIRE IN WORLD LITERATURE

The development of satire, which some researchers indicate appeared in ancient Greece, and some in ancient Roman literature, is associated with the names of Horace Persius, Lucilian and Juvenal. The famous Roman orator Quintilian introduced satire as a literary genre. From the Renaissance to the present day, the role of satire has increased significantly and has taken an important place in literature. The emergence of new satirical works, different in content, is also associated with this period. Satirical works written against the church and church dogmas, church figures and rules, as well as immoral priests and religious figures, began to emerge during this period, and as the bourgeoisie developed, satire also evolved and developed.

The attitude towards satire has always been different, often met with a critical attitude. Satire, which was not welcomed due to its position on the ruling ideology, was evaluated as a carrier of negative emotions by the social groups and individuals it criticized and became a target of laughter. In fact, satire is a small-scale art form that reflects the specific, individual flaws of society and individuals. Satire is an effective weapon against ignorance and ignorance, against imperfection, injustice and injustice. In this respect, satire is more advanced than other literary types and genres in literature. In the late 19th and early 20th centuries, satire developed further with the work of Bernard Shaw. In the words of M.V. Pocotilo, "Satire gradually emerged from the influence of the strong pathos of exposure and denial that characterized it and became an expression of virtuoso wit and intelligence."
The emergence and development of satire was associated with the development of literary processes, the changes in form and content that occurred, and comicality, humor or irony determine the social and social function of satire. According to Boileau, who assessed the social function of satire, the satire genre is more necessary for society than the ode. In this regard, it is appropriate to specially mention the satirical works that emerged in oral folk literature. Researchers especially emphasize the importance of the "Comedy of Masks" belonging to Italian folk literature. The fact that the works of authors who criticized and influenced the ideology of the Renaissance have not lost their value yet again proves the role of satire.

**Keywords:** satire, process, humor, social content, task